*Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**10 noyabr 2020-ci il**

***2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycan xalqı dünya tarixində misli görünməmiş bir zəfərə şahidlik etdi. Belə ki, istər yerli, istərsə də xarici hərbi ekspertlər II Qarabağ müharibəsi ilə bağlı danışarkən bildirirlər ki, 44 gün ərzində konkret nəticəyə nail olmaq, həm hərb, həm də siyasət meydanında qələbə qazanmaq tarixdə görünməyən hadisədir. Hər kəsə məlum olduğu kimi, ötən il sentyabrın 27-də Azərbaycan Ordusu erməni təxribatına cavab olaraq cəbhəboyu əks-hücum əməliyyatına başladı. Burada müharibənin əks-hücumla başlanması faktını xüsusilə qeyd etmək lazımdır. Bu, onu göstərir ki, ermənilər öz yalanlarına, miflərinə o qədər inanmışdılar ki, hətta yeni ərazilər ələ keçirə biləcəklərini də düşünürdülər. Güman edirdilər ki, Azərbaycan 30 il əvvəlki Azərbaycandır. Görünür, 2016-cı ildə Aprel döyüşləri və 2020-ci il Tovuz hadisələri də düşmənə görk olmamışdı. Bu minvalla cəbhə boyu təxribata başlayan ermənilər özlərinə quyu, daha dəqiq desək qəbir qazdılar.***



# Üçtərəfli bəyanat faktiki olaraq Ermənistanın məğlubiyyətini dünyaya bəyan edən kapitulyasiya aktıdır

Əlbəttə, sentyabrın 27-də və sonrakı günlərdə nələr baş verdiyini tarixçilər, ekspertlər deyəcəklər. Lakin hadisələrin necə başladığı hər kəsə məlumdur. Ümumiyyətlə, 2020-ci il Azərbaycan xalqı üçün geridə qalan illərə nəzərən, döyüş ab-havası ilə keçirdi. Xalqımız meydanlara toplaşaraq Ali Baş Komandandan “hücum əmri” gözləyirdi. 30 ilə yaxın müddət ərzində hər zaman danışıqlar prosesini ilkin həll yolu olaraq görən, qan tökülməsini istəməyən xalqın səbr kasası dolmuşdu. Bütün bunlar Ermənistanın hərbi kapitulyasiyası ilə nəticələnən II Qarabağ müharibəsinin, ümumilikdə, Azərbaycanın zəfər yürüşünün ilk addımları idi.

Əminəm ki, Prezidentimizin müharibədən bir müddət əvvəl Ermənistanın baş nazirinə ünvanladığı “Odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın!” xəbərdarlığı hər bir azərbaycanlının yaxşı yadındadır. Elə o vaxt ölkə başçısı vurğulamışdı ki, siz Azərbaycan xalqını tanımırsınız. Tanıyacaqınız, amma gec olacaq. Təəssüf ki, düşmən öz hərəkəti ilə sübut etdi ki, onlar bu illər ərzində Azərbaycan xalqını tanımayıb. Biz isə onun xain sifətini çoxdan görmüş, ikiüzlü xislətinə bələd olmuşduq

Hərbi əməliyyatların ilk günlərindən Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyəcəyini başa düşən düşmən əsgərləri kütləvi şəkildə fərarilik edir, girməyə siçan deşiyi axtarırdılar. Əslində, müharibənin ilk günündən gedişat göz qabağında idi. Onlar üçün məğlubiyyət, nəticədə kapitulyasiya qaçılmaz idi. Gün keçdikcə bunu daha yaxşı başa düşürdülər.

Müharibənin davam etdiyi günlərdə Prezident İlham Əliyev xarici media mənsublarına verdiyi müsahibələrdə dəfələrlə Ermənistanı inad etməməyə, bizə torpalarımızdan çıxacaqları tarixin qrafikini verməyə dəvət edir, bununla da hərbi əməliyyatların dayandırılacağını söyləyirdi. Lakin Ermənistanın siyasi iqtidarı hələ də riyakarlıq edir, rüsvayçılığını xalqından gizlətməyə çalışırdı. Bu isə günbəgün məğlubiyyətin miqyasını böyüdür, daha çox itki vermələrinə səbəb olurdu.

Qəribəsi budur ki, onlar son günə qədər məsələnin mahiyyətini qəbul etməməkdə israr edirdilər. Noyabrın 8-də Şuşanın, sonra isə Azərbaycan Ordusunun 70-dən çox yaşayış məntəqəsini işğaldan azad etməsindən sonra Ermənistan məğlubiyyəti rəsmən boynuna aldı. Dövlətimizin başçısı həmin gün xalqa müraciət edərək bu tarixi xəbəri bütün Azərbaycana çatdırdı. Prezidentimiz də həyata keçirilən hərbi əməliyyatların nəticələrinin ermənilər üçün son hədd olduğunu xüsusi vurğuladı: “Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da – Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı – Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq”.

Dövlət başçımızın dediyi kimi, bu, Azərbaycanın növbəti şanlı qələbəsidir. Bəyanat Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalandı. Bu bəyanat faktiki olaraq Ermənistanın kapitulyasiyası idi.

Xatırladaq ki, bəyanat 9 maddədən ibarətdir. Əlbəttə, bu maddələrin hər biri Azərbaycanın zəferinin önəmli tərkib hissəsidir. Lakin burada xüsusilə qeyd edilməli iki əsas məqam var: Laçın, Kəlbəcər və Ağdamın itkisiz azad olunmsı və əlbəttə, Zəngəzur dəhlizinin açılması. Burada qeyd olunan dəhlizin açılması Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsinin yaranması deməkdir. Bu da, həmçinin kommunikasiyaların, yolların açılması, eləcə də türk dünyasının birləşməsi deməkdir. Prezident İlham Əliyev bu barədə demişdir: “Burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu”.

***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***